## *PEDAQOGİKA*

**UOT 316.33.316.37**

# NİZAMİ GƏNCƏVİNİN ƏSƏRLƏRİNDƏ VALİDEYİN ÖVLAD MÜNASİBƏTLƏRİ

***Abdinova Sənubər Sabir qızı, İsmayılova Güləndam Allahverdi qızı***
***AMEA Gəncə Bölməsi Humanitar Tədqiqatlar İnstitutu***
***yavernamazova@mail.ru***

**Xülasə:** *Azərbaycan xalqının zəngin adət-ənənələri, mərasimləri və inanc dünyası var. Bu bədii nümunələr tarixin sınağından çıxmış, şifahi dildə yaşaya-yaşaya bizə gəlib çatmışdır. Bu adət-ənənələrdə milli həyata son dərəcə bağlılıq özünü göstərməkdədir. Milli-mənəvi dəyərlərimizdən biri də ata-anaya məhəbbət, övladlara yüksək qayğı, ağsaqqallara hörmət və ehtiramdır. Dahi şairimiz N.Gəncəvi bu dəyərləri yüksək qiymətləndirmişdir. O, bütün əsərlərində valideyn-övlad arasında olan qarşılıqlı məhəbbəti, hörmət və izzəti dönə-dönə tərənnüm etmişdir. Valideynlərin haqqını yerinə yetirmək, onların qayğısına qalmaq, dərdinə əlac etməkdən daha artıq bir fəzilət ola bilməz.*

*N.Gəncəvinin valideyin-övlad münasibətləri haqqında fikirlərinin mərkəzində əsasən insanpərvərlik ideyası dayanır. Onun fikrincə insanpərvərlik insanlığın "parlaq gövhəridir". Hər bir valideynin borcu övladını boya-başa çatdırmaq, ona yüksək təlim-tərbiyə vermək, kamil insan kimi yetişdirməkdir. N.Gəncəvinin əsərlərində valideyin-övlad münasibətləri, digər xalq adət-ənənələri ilə bağlı çoxlu nümunələr vardır. Bu xüsusiyyət onun xalq adət-ənənələrini yaxşı bilməsi və qədim adətlərə hörmətlə yanaşmasını göstərir.*

*Məqalədə N.Gəncəvinin əsərlərində ata-oğul münasibətləri, eləcədə valideynlərin övlada olan məhəbbətindən bəhs edilir. Valideyin-övlad münasibətlərinin qarşılıqlı olduğunu nəzərə çatdıran şair, uşağın təlim-tərbiyəsinin hər bir valideyn üçün çox vacib olması fikrini də qeyd etmişdir.*

**Açar sözlər***:* adət-ənənə, ədəb-ərkan, valideyin-övlad münasibəti, ata-ana haqqı, insanpərvərlik.

**Ключевые слова:** обычай, почитание, отношения между детьми и родителями, право отца и матери, человечность.

**Key words:** custom, respect, velations between kids and parents, the right of a father and a mother, humanity.

Adət-ənənələr hər bir xalqın dünya baxışını, soykökünü, yaşam tərzini özündə əks etdirən mənəvi-əxlaqi dəyərlər toplusudur.

Xalqımızın da özünəməxsus zəngin, bu günə qədər qoruyub saxladığı adət-ənənə və mərasimləri vardır. Azərbaycan xalqı hələ çox qədimdən dostluq, qardaşlıq, ədəb-ərkan, böyüyə hörmət, qonaq qarşılama, qonaq yola salma, toy və yasla bağlı bir çox adətlər yaratmışdır.

Azərbaycan xalqının adət-ənənə və mərasimləri dünya xaıqlarının milli mədəniyyəti içərisində öz məzmun dolğunluğu, həm də mövzu rəngarəngliyi ilə seçilir. Bu mərasimlər və adətlər türk xalqlarının çox əsrlik tarixi prosesində öz əksini tapmışdır. Xalqın milli təfəkkürünün qüdrəti ilə yaranmış hər adətdə, ənənədə, mərasimdə milli həyata son dərəcə bağlılıq özünü göstərməkdədir.

Xalqımızın yüksək insanpərvərliyini göstərən milli-mənəvi dəyərlərimizdən biri də ata-anaya ali məhəbbət, övladlara yüksək qayğı, ağsaqqallara dərin hörmət və ehtiramdır. Cəmiyyətdə əxlaqi dəyərlərin təbliğində böyüklərə hörmət, kiçiklərə qayğı hissinin formalaşdırılması vacib məsələlərəndir. Hər bir valideyin övladına bu hissləri öz davranışları ilə göstərməyə çalışmalıdır. Çünki məhz həmin övladlar gələcəyin ailə başçılarıdır.

İslam dini böyüklərə hörmətsizlik göstərən müsəlmanı təkcə yüngül bir qınaqla deyil, həmçinin sərt cəzalarla xəbərdarlıq etmişdir. “Kiçiyimizə mərhəmət göstərməyən, böyüyümüzə hörmət etməyən bizdən deyil!” Alimlər hədislərə vurğulanan “bizdən deyildir” ifadəsini haram əmələ və ya böyük günaha yol verilmişdir kimi aşıqlamışlar. Dinimizdə valideyinə məhəbbət, hörmət və diqqət ən önəmli məsələlərdəndir. Belə ki, Allaha ibadətdən sonra ata-anaya yaxşılıq hər bir insanın üzərinə düşən ən ümdə vəzifələrdən biri sayılır. Hədislərin birində deyilir: “Peyğəmbərdən(s) ata-ananın övladın üzərində hansı hüquqa malik olduğu haqda soruşduqda o belə buyurur: “Onlar sənin həm cənnətin, həm də cəhənnəmindirlər.” Yəni insanın cənnət və cəhənnəmə getməsi valideyinlərə göstərdiyi qayğıdan və hörmətdən asılıdır.

Belə dəyərləri yüksək qiymətləndirən dahi şairimiz Nizami Gəncəvi bütün əsərlərində valideyin-övlad münasibətlərindəki qarşılıqlı məhəbbəti, hörmət və izzəti dönə-dönə tərənnüm etmişdir.

Belə məhəbbətin təzahürünü birinci növbədə ata-anasına dərin ehtiram, oğlu Məhəmmədə yüksək qayğı və məhəbbət göstərən şairin şəxsi nümunəsində görürük. Məhəmməd Peyğəmbərin adını öz sevimli oğluna vermiş şair onun “Cənnət anaların ayaqları altındadır”, - ideyasını öz əsərlərində inkişaf etdirmiş və ona adının müqəddəsliyini sübut etməyə çalışmışdır. Məs: Məcnunun dili ilə şair anaya belə qiymət verir:

Başımın tacıdır ayağın sənin,
İncimi bəslənmiş sənin sədəfin.
Sənin toxumunun məğziyəm ana,
Ayaq torpağın da cənnətdir mana [1, səh 212].

Ana haqqı Tanrı haqqıdır. Ana qəlbi daha zərif, daha kövrəkdir. Ananı incitmək ən böyük qəbahətdir. Övlad ata tənbehi gördükdən sonra ağıllanır: ana hüququ isə nisbətən cismanidir. Bu səbəbə görə də övladlar bunu daha tez hiss edir və analarına daha artıq meyl göstərirlər.

Nizami Gəncəvi əsərlərində anasının yoxluğunu ağır bir dərd hesab edir və yazır:

Kürd qızı anam da bizi tərk etdi,
Bir ana qəlbiylə dünyadan getdi.
Nə qədər ağlayıb, yansa da ürək,
Anama dil verən varmıdır, görək?
Çəkməklə qurtarmaz bu dərdi insan,
Bu girdab dərindir insan boyundan [1, səh 67].

Ata-ananın haqqını yerinə yetirmək,onların qayğısına qalmaq, dərdinə əlac etməkdən daha artıq bir fəzilət ola bilməz. Necə ki, böyük Yaradan özü əmr etmişdir: Allah belə buyurmuşdur, ondan və valideyinlərdən başqa heç kəsə sitayiş etməyib, ehsan verməyəsiniz.“ Bu haqqı yerinə yetirmək, Allah hüzurunda borcu verməkdən daha vacibdir, çünki Allah öz verdiyi nemətlər müqabilində heç bir mükafata möhtac deyildir, ata-ananın isə buna böyük ehtiyacı vardır. Valideyinlər bütün ömürləri boyu övladlarının böyüyüb boya-başa çatmalarını, yaxşı peşə sahibi olmalarını və onlara əl tutmalarını böyük arzu ilə gözləyirlər.

Ata-ana istər yaşadığı müddətdə, istərsə də vəfat etdikdən sonra, övlad onların vəsiyyətlərini unutmamalı və onlara əməl etməlidir.

Atanın haqqı övladın üzərində çox ağırdır. Ata evin böyüyü, övladın arxası, dayağıdır. Atanın üzünə ağ olmaq, bir sözünü iki eləmək yasaq hesab olunur. Hər kəs ata haqqını itirsə, həyatda həmişə çətinliyə düşər, işi rast gətirməz. Belə bir atalar sözü var: “Böyüyün sözünə baxmayan böyürə-böyürə qalar”. Ata yerində olan adamlar məs: müəllimlər, babalar,əmilər, böyük qardaşlar da valideyin kimi hesab edilməlidir. Onlara da hörmət göstərmək, kömək etmək, ürəklərinə dəyən hərəkətlərə yol verməmək lazımdır.

Dahi şairimiz Nizami Gəncəvi ana ilə yanaşı ata adını da çox yüksəkdə tutur. Atanın üzünə ağ olmağı övlad üçün böyük naqislik hesab edir. Şairin fikrincə ata öz böyüklüyünü

qorumalı, belə övlada cəza verməyə tələsməməlidir. Çünki belə övladların cəzasını həyat özü verəcəkdir:

Nə eyləsə sənə övladın, inan,
Onu görəcəkdir öz övladından.
Oğlunun yaxşı, pis işiyçün, dayan,
Cəza vermə, o da alar öz oğlundan [4, səh 58-59].

Şair atasının xatirəsini belə anır:

Atam Yusif ibn-Zəki Müəyyid,
Babamtək dünyanı tərk edib getdi.
Dövranın işidir, nə etməliyəm,
Nə üçün ağlayım, deyildir sitəm.
Atalar yolunu çox gördüyümdən,
Öz ata qəlbimi qopardım ki, mən,
Ölüm tikanından süzülən zəhər,
Canıma yerisin, ərisin qəmlər [1, səh 67].

Nizami Gəncəvinin "Leyli və Məcnun" əsərində ata və oğul münasibətləri daha təsirli verilmiş, valideyinlərin övlada olan məhəbbəti daha parlaq şəkildə təsvir edilmişdir. Məs: övladını öz canından əziz hesab edən Məcnunun atası oğluna müraciətlə deyir:

Canımsan, canımdan daha əzizsən,
Evə dön, evimin işığısan sən [1, səh 105].

Valideyin-övlad məhəbbətinin qarşılıqlı olduğunu nəzərə çatdıran şair uşağın, onun təlim-tərbiyəsinin hər bir ata-ana üçün çox əziz olduğunu qeyd etmişdir.

"Övladın iqbalı ona olsa yar, ata sevincindən bəxtiyar olar," - deyən şairin baş qəhrəmanlarının hamısı – Məcnun, İsgəndər, Bəhram və s. öz valideyinlərinin yüksək qayğısı ilə əhatə olunur. Məs: "Yeddi gözəl" poemasında Bəhramın boya-başa çatmasında, təlim-tərbiyə almasında atasının necə qayğı göstərdiyinin şahidi oluruq.

Şair "İsgəndərnamə" poemasında atası Teyləqusun oğlu İsgəndərin təlim-tərbiyəsinə, bir şəxsiyyət kimi formalaşmasına necə böyük diqqətlə yanaşdığını göstərir.

"Leyli Məcnun" poemasında şairin öz oğlu Məhəmmədə nəsihəti ata-oğul münasibətlərinin daha möhkəm və səmimi olduğunu göstərir:

Sən, ey on dörd yaşlım, hər elmə yetkin!
Gözündə əksi var iki aləmin!
Qəflətdə oynama, qeyrət vaxtıdır,
İndi hünər vaxtı, şöhrət vaxtıdır.
Ucalmaq istəsən, bir kamala çat,
Kamala ehtiram göstərər həyat.
Öz adına layiq işlər gör ki, sən,
Axırda utanma xəcalətindən.
Oğul sözlərimə yaxşı qulaq as!
Ata nəsihəti faydasız olmaz [1, səh 64-65].

Nizami Gəncəvinin valideyin-övlad münasibətləri haqqında fikirlərinin mərkəzində əsasən insanpərvərlik ideyası dayanır. Onun fikirincə insanpərvərlik insanlığın "parlaq gövhəridir."

İnsan olan hər bir kəs insanları sevməlidir. Hər bir insan ilk növbədə öz ata-anasını sevməli, onlara dərin ehtiram göstərməlidir. Hər bir valideynin borcu isə övladının boya-başa çatması, yüksək təlim-tərbiyə alması, kamil insan kimi yetişməsi üçün əlindən gələni əsirgəməməkdir. Eləcə də, valideyninə kömək edib xeyir vermək nə qədər əxlaqi saflığa dəlalət edirsə, nankorluq və kobudluq da o qədər tərbiyənin çürüklüyünə bir sübutdur.

Nizami Gəncəvinin hər bir əsərində valideyin-övlad münasibətləri, digər xalq adət-ənənələri ilə bağlı çoxlu nümunələrə rast gəlinir. Bu xüsusiyyət onun xalq adət-ənənələrini yaxşı bilməsi və qədim adətlərə hörmətlə yanaşmasının bariz nümunəsidir.

Qədim mədəniyyətə, dərin tarixi köklərə və adət-ənənələrə malik olan xalqımızın mənəviyyat xəzinəsi özünün zənginliyi ilə dünya miqyasında seçilir və qiymətləndirilir. Bu bədii nümunələr tarixin sınağından çıxmış, şifahi dildə yaşaya-yaşaya bizə gəlib çatmışdır. Onlara arxa çevirməyə mənəvi haqqımız yoxdur. Çünki onların hər birinin arxasında xalq həyatının özünəməxsus səciyyəvi bir cəhəti dayanır. Məhz buna görə də minilliklər boyu daha da kamilləşən və nəsildən-nəsilə ötürülən adət-ənənələrimizin öyrənilməsi və qorunub saxlanılması günümüzün aktual problemlərindən biri sayılmalıdır.

***Ədəbiyyat***

1.Nizami Gəncəvi. “Leyli və Məcnun”. Bakı -1982.
2.Nizami Gəncəvi. “Yeddi gözəl”. Elm -1983.
3.Nizami Gəncəvi. “İsgəndərnamə”. Bakı “Elm” 1983.
4.B.Apoyev. Nizami Gəncəvinin pedaqoji görüşləri. Bakı, “Adiloğlu”2008, səh 52.
5.Mərasimlər, adətlər, alqışlar. Gənclik- 1993, səh 92.

## ОТНОШЕНИЯ МЕЖДУ ДЕТЬМИ И РОДИТЕЛЯМИ В ПРОИЗВЕДЕНИЯХ НИЗАМИ ГЯНДЖЕВИ

***Абдинова Санубар Сабир кызы, Исмаилова Гюландам Аллахверди кызы***

***Резюме***

У Азербайджанского народа есть очень богатые обычаи, церемонии и верующий мир. Эти художественные образцы дошли до нас через устное народное творчество. Эти обычаи и традиции имеют крепкую национальную связь. Национально нравственная стоимость это любовь к родителям, забота к детям, уважение к старикам. Великий поэт Н.Гянджеви высоко оценил эти стоимости. Он во всех своих произведениях говорит о взаимной любви и уважении между родителями и детьми. Уважать родительское право, заботиться о них это самое высокое достижение детей. В произведениях Н.Гянджеви об отношениях родителей и их детей в центре всего стоит патриотическая идея. По его мнению, патриотизм является драгоценным камнем человечества. Каждый родитель должен вырастить своего ребёнка, воспитать как настоящего человека. У Н.Гянджеви в произведениях есть много образцов по отношению родителей и детей.

Это показывают, что он имеет большое уважение к обычаем и традициям и прекрасно знает народные традиции. В его статье говорится об отношениях отца и сына, матери и сына, а также о любви родителей и детей. О взаимоотношениях родителей и детей, о воспитании детей каждого родителья является главной мыслью в произведениях поэта.

## THE RELATIONS BETWEEN PARENTS AND KIDS IN NIZAMI GANJAVI`S WORKS

***Abdinova Sanubar Sabir, İsmailova Gulandam Allahverdi***

***Summary***

Azerbaijani people has so rich traditions, customs and values. These aristic samples reached us within the oral folklore. Traditions and customs have a strong national relations. So the basik moral power of these values is love to the parents,caring for children, respect for old people. The great thinker Nizami Gancavi appreciated these moral values. In his all poems, also works he told about the love and care not only to the lovers,people,but also to

relatives, children. Respect of law of parents, protect them that is so great achievement of children.

In his various works Nizami Gancavi noted that, the main idea here is patriotism. He told about this issue as so protective problem on parents care, also children debts. He deseribed it based on national samples, folklore repect issues.

Also, in this scientific article researched such problems as relations between son and father, daughter and mother and these moral elements are the basic motives in poems of this great poet and thinker.

***Rəyçi: f.ü.f.d.Quliyeva Ruziyə Zaman qızı***

***AMEA Gəncə Bölməsi Ədəbiyyat şöbəsinin 18.06.2021-ci il tarixli iclasının 03 saylı protokolu. Daxil olma tarixi 25.06.2021-ci il***

***Daxil olma tarixi 22 sentyabr 2021-ci il***

**UOT:37.**

## ÖZÜNÜTƏHSİLİN PEDAQOJİ PROBLEM RAKUSUNDAN TƏHLİLİ

***Dos.Bayramova Ziyafət Vilayət qızı, Abdullayeva Şahanə Arzu qızı***

***Gəncə Dövlət Universiteti***

**ziyafet@bk.ru**

**Xülasə:** *XXI əsr informasiya texnologiyaları dövrü kimi səciyyələndirilmişdir. Şagird qarşısında duran başlıca tələb informasiyaların müxtəlif mənbələrdən alınması önəmli deyil. Burada müstəqil biliklərin əldə edilməsi vacib hesb edilir.*

*Bu gün təhlis alan tərəfindən keçmişin sosial təcrübəsinin əldə edilməsi şəxsiyyətin müasir şəraitdə özünütəsdiqinə ziddir. Ona görə də müasir təhsilin modernləşdiyi zamanda başlıca vəzifələrdən biri yeni dünyanı və şəraiti tam dərk etməyə bacaran, təbiət qanunları və qanunauyğunluqları ilə ayaqlaşan özünütəhsil səriştəsinə malik şəxsiyyətin formalaşdırılmasıdır. Qarşıya qoyulmuş yeni vəzifələr insandan fasiləsiz təhsil almaqla yanaşı özünütəhsil qabiliyyətlərini də tələb edir.*

*Özünütəsil – şəxsiyyətin yüksək dərəcədə özünü təqdimatı qismində çıxış edir. Burada adekvat şəkildə insanın fiziki və mənəvi qüvvələri üzə çıxır. Bu elə bir fəaliyyət növüdür ki, burada insan özünüinkişafı yalnız mənəvi baxımdan təmin edilməsinə nail olmur, həm də subyektiv əhəmiyyət kəsb edən maddi dəyərlər yaradır.*

**Açar sözlər:** özünütəhsilin məqsədləri, özünütəhsil fəaliyyəti, şəxsiyyətin inkişafı, əqli fəaliyyət, peşə bazası

**Ключевые слова:** цели самообразования, самообразовательная деятельность, развитие личности, умственная деятельность, профессиональная база.

**Key words:** goals of self-education, self-educational activity, personality development, mental activity, professional base.

Tədqiqatçıların bir çoxu özünütəhsilin başlıca məqsədi şəxsiyyətin intellektual blokunun formalaşması, təhsilləndirici funksiyası olaraq vurğulayırlar. Özünütəhsilin məqsədləri müxtəlif ola bilər. Lakin nəticə etibarı ilə mədəni, ictimai-siyasi, elmi dairə çərçivısində biliklərin mənimsənilməsinə gətirib çaxarır. Daim idrakı fəaliyyəti gücləndirməklə təqdim edilmiş materialın müstəqil mənimsənilməsi, elmi mətn üzərində təhlilin aparılması, analiz, sintez, ümumiləşdirmə kimi proseslərin həyata keçirilməsi nəticəsində insanın əqli fəaliyyətinin mədəni səviyyəsinin yüksəldilməsinə gətiri çıxarır.